**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI İLƏ**

**PAKİSTANIN SERTİFİKATLI MÜHASİBLƏR İNSTİTUTU ARASINDA**

**ANLAŞMA MEMORANDUMU**

**Tarix: _________ 2021-ci il**

Bir tərəfdən, rəsmi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1072, S.Y.Bakuvi küçəsi 35 olan, Azərbaycan Respublikası Auditorlar Palatasının (Bundan sonra "ARAP" adlandırılacaq) Sədri Vahid Tapdıq oğlu Novruzovun şəxsində, digər tərəfdən, rəsmi ünvanı ________________________________ olan Pakistanın Sertifikatlı Mühasiblər İnstitutunun (Bundan sonra "ICAP" adlandırılacaq) Prezidenti İftixar Tac şəxsində, sonralar "Tərəflər" adlandırılmaqla, Beynəlxalq Mühasiblər Federasiyasının (BMF) üzvü olan Tərəflər arasında qarşılıqlı münasibətləri və peşə fəaliyyətinin əsas istiqamətləri üzrə fikir mübadiləsi apararaq, aşağıdakılar barəsində bu Anlaşma Memorandumunu imzaladılar:

## 1. Ümumi müddəalar

1.1. ARAP və ICAP arasında bu anlaşma memorandumu (Bundan sonra "AM" adlandırılacaq) hər iki qurum arasında qarşılıqlı əməkdaşlığın yaradılması üçün hazırlanmışdır.

1.2. Tərəflərin müvafiq üzvlərinin, audit və mühasib peşələrinin inkişafı üçün qarşılıqlı əməkdaşlığın təşviq edilməsinin vacibliyini tanıyaraq, ARAP və ICAP aşağıda göstərilən şərtlərlə razılaşırlar.

## 2. Memorandumun məqsədi

2.1. Bu AM-ın məqsədi hüquqi münasibətlər yaratmaq niyyəti olmadan Tərəflər arasında qarşılıqlı əməkdaşlıq əlaqələrini yaratmaq, qarşılıqlı faydaya xidmət edən əməkdaşlıq imkanlarını araşdırmaq, hər birinin və qarşılıqlı maraqların qorunması üçün Tərəflərin əməkdaşlıqla bağlı müvafiq rollarını və məsuliyyətlərini müəyyən etməkdir. Tərəflərin üzərinə öhdəlik qoya biləcək hər hansı müştərək layihələr ayrıca müqavilə razılaşmalarının predmetidir.

2.2. Mütəmadi olaraq qarşılıqlı şəkildə razılaşdırılan maliyyələşdirmədən əlavə heç bir Tərəfdən maliyyə vəsaitləri tələb olunmayacaqdır. Tərəflər razılığa gəlirlər ki, bütün maliyyə razılaşmaları tədbirlər görülməzdən əvvəl hər bir xüsusi hal üçün müzakirə ediləcək və vəsaitlərin mövcudluğundan asılı olacaqdır.

2.3. Birgə fəaliyyət nəticəsində əldə edilmiş gəlirlər tərəflərin qarşılıqlı razılığı əsasında bölüşdürülür.

## 3. Qarşılıqlı əməkdaşlıq fəaliyyəti

3.1. Tərəflər Azərbaycan və Pakistan Respublikalarının qanunvericiliyi ilə onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi zamanı öz səlahiyyətləri çərçivəsində auditor, maliyyə və mühasibatlıq xidmətlərinin göstərilməsi ilə əlaqədar qarşılıqlı fəaliyyətlərini aşağıdakı sahələr üzrə həyata keçirirlər:

3.1.1. Audit, maliyyə və mühasib peşəsi üzrə kadrların hazırlanması;

3.1.2. Audit, maliyyə və mühasib peşəsi üzrə beynəlxalq proqram təminatının öyrənilməsi və tətbiqi;

3.1.3. Tərəflərin audit və mühasibatlıq sahəsində yeni innovativ metodlardan istifadənin öyrənilməsi və tətbiqinə dair əməkdaşlığın həyata keçirilməsi (Blokçeyn texnologiyasının, ağıllı müqavilələr sisteminin, Ənənəvi uçotdan “Bulud” uçotuna keçidin təmin edilməsi).

3.1.4. Auditdə, uçot və mühasibatlıqda innovasiyaların tətbiqi üzrə maarifləndirici və metodoloji vəsaitlərin birgə hazırlanması və nəşr etdirilməsi;

3.1.5. Audit, maliyyə və mühasib peşəsinin inkişafı sahəsində əməkdaşlığın təmin edilməsi;

3.1.6. Audit, maliyyə və mühasib peşəsinin inkişafı istiqamətində birgə konfransların, simpoziumların, “dəyirmi masa”ların, treyninqlərin keçirilməsi və maliyyələşdirilməsi;

3.1.7. Tərəflərin üzvlərinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi ilə bağlı qarşılıqlı əlaqələrin qurulması;

3.1.8. Təlim, təhsil və peşə hazırlığı sahəsində əməkdaşlığın təşkil edilməsi;

3.1.9. Tərəflərin peşə fəaliyyəti ilə bağlı informasiya mübadiləsinin təşkil edilməsi;

3.1.10. Audit və mühasibat uçotu üzrə normativ sənədlərin birgə hazırlanması və nəşr etdirilməsi;

3.1.11. Qarşılıqlı maraq doğuran məsələlər üzrə təkliflər irəli sürmək üçün məsləhətləşmələrin aparılması;

3.1.12. Peşəkar qurumlar tərəfindən çap etdirilən kitablar, jurnallar və s. nəşrlər haqqında vəsaitlərin mübadiləsinin, audit və mühasibat peşəsi ilə bağlı məqalələrin qarşılıqlı mübadilə yolu ilə təşkilatların jurnal və internet səhifələrində yerləşdirilməsi.

3.1.13. Audit, maliyyə və mühasibat peşəsi üzrə kadrların “IFAC”-ın üzvlük tələblərinə uyğun olaraq hazırlanmasında müvafiq materialların əldə edilməsi və tətbiqi sahəsində qarşılıqlı işgüzar informasiya mübadiləsinin həyata keçirilməsi;

3.1.14. Korrupsiyaya, kölgə iqtisadiyyatına və çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə birgə əməkdaşlığın edilməsi.

## 4. Məxfilik

4.1. Tərəflər əməkdaşlıq edərkən əldə olunmuş məlumatlar ilə bağlı zəruri məxfilik tələblərinə əməl etməlidirlər;

4.2. Tərəflər açıqlanmış, əldə edilmiş və ictimaiyyətə açıq və ya məlum olmayan hər hansı bir məlumatı məxfi saxlamağa və bu məlumatı digər tərəfin razılığı ilə və tənzimləyici orqanın tələbi ilə açıqlandığı hallar istisna olmaqla üçüncü tərəflərə açıqlamamağa razılaşırlar.

## 5. Digər məsələlər

5.1. Bu AM 5 (beş) il müddətinə bağlanılır və imzalandığı gündən qüvvəyə minir. Bundan sonra AM hər iki qurumun qarşılıqlı razılığı əsasında yenilənə bilər.

5.2. Tərəflərin qarşılıqlı razılığı əsasında bu AM-na dəyişikliklər edilə bilər. Dəyişikliklər bu AM-nun tərkib hissəsi olan müvafiq protokolla rəsmiləşdirilir və bu AM-nun 5.1-ci maddəsinə uyğun olaraq qüvvəyə minir.

5.3. AM-nun tətbiqi zamanı yarana biləcək mübahisələr və fikir ayrılıqları tərəflər arasında məsləhətləşmələr yolu ilə həll edilir.

5.4. Tərəflər ən azı 1 (bir) ay əvvəl yazılı bildiriş göndərməklə bu AM-nu ləğv edə bilər.

5.5. Bu AM eyni hüquqi qüvvəyə malik olmaqla, azərbaycan və ingilis dillərində 2 (iki) nüsxədə tərtib olunur və tərəflərin hər birində bir nüsxə saxlanılır.

| | |
|---|---|
| **Azərbaycan Respublikası<br>Auditorlar Palatasının sədri<br>Vahid Novruzov**<br>______________ | **Pakistanın Sertifikatlı Mühasiblər<br>İnstitutunun Prezidenti<br>İftixar Tac**<br>______________ |